# Azərbaycan Respublikasının «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 17 may 2002-ci il***

***№ 328-IIQD.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (2 iyun 2002-ci il, № 124) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2002-ci il, № 5, maddə 254) («VneshExpertService» LLC).***

***30 sentyabr 2013-cü il tarixli, 733-IVQD nömrəli Qanuna əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

*«Azərbaycan Respublikasının*
*«Hərbi əməkdaşlıq sahəsində*
*xidmətlərə görə»*
*medalının Əsasnaməsinin və*
*təsvirinin təsdiq edilməsi haqqında»*
*Azərbaycan Respublikasının*
*2002-ci il 17 may tarixli,*
*328-IIQ nömrəli Qanunu ilə*
***təsdiq edilmişdir***

# «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalı haqqında

# Əsasnamə

1. «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalı ilə Azərbaycan Respublikası ilə hərbi əməkdaşlığın möhkəmləndirilməsində göstərdikləri xidmətlərə görə Azərbaycan Respublikasının və xarici ölkələrin hərbi qulluqçuları və digər şəxslər təltif edilirlər.

2. «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda «Sərhəddə fərqlənməyə görə» medalından sonra taxılır.

*«Azərbaycan Respublikasının*
*«Hərbi əməkdaşlıq sahəsində*
*xidmətlərə görə»*
*medalının Əsasnaməsinin və*
*təsvirinin təsdiq edilməsi haqqında»*
*Azərbaycan Respublikasının*
*2002-ci il 17 may tarixli,*
*328-IIQ nömrəli Qanunu ilə*
***təsdiq edilmişdir***

# «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalının təsviri

«Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalı *mərkəzində aypara və səkkizguşəli ulduz olan* milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş qızılı rəngli, dairəvi formalı, diametri *36 mm* olan lövhədən ibarətdir.

Medalın ön tərəfində üzərində səkkizguşəli ulduz yerləşdirilmiş qalxan təsvir edilmişdir.

Qalxandan yuxarıda çevrə boyunca «Azərbaycan Respublikası», ulduzun ortasında «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» sözləri yazılmış, qalxandan aşağıda iki çarpazlaşdırılmış qılınc, qalxanın sol tərəfində dəfnə yarpağından, sağ tərəfində isə palıd yarpağından çələnglər yerləşdirilmişdir. Çevrənin daxili və ulduzun xarici konturlarının arasında relyefli şüalar vardır.

Ulduz ağ, qılınclar gümüşü rəngdə, qalan təsvirlər isə qızılı rəngdədir.

Arxa tərəfi hamar səthlidir*, orta hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.*

*Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentlə halqa və ilgək vasitəsilə birləşdirilir. Tünd qırmızı rəngli xara lentin kənarlarından mərkəzinə doğru ardıcıl olaraq 1 mm enində qızılı rəngli, 3 mm enində göy və yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı rəngli təbəqə bərkidilir.*

Medala paltara bərkidilmək üçün elementi olan, *eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm* ölçülü qəlib əlavə olunur.

## «Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə» medalı



**“Azərbaycan Respublikasının “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 328-IIQ nömrəli Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

“Azərbaycan Respublikasının “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 328-IIQ nömrəli Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 254) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qanunla təsdiq edilmiş “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalının təsviri”ndə:

1.1. birinci hissədə “milli” sözündən əvvəl “mərkəzində aypara və səkkizguşəli ulduz olan” sözləri əlavə edilsin, “35 mm” sözləri “36 mm” sözləri ilə əvəz edilsin;

1.2. beşinci hissədə “səthlidir” sözündən sonra “, orta hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur” sözləri əlavə edilsin;

1.3. altıncı hissə aşağıdakı redaksiyada verilsin:

“Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentlə halqa və ilgək vasitəsilə birləşdirilir. Tünd qırmızı rəngli xara lentin kənarlarından mərkəzinə doğru ardıcıl olaraq 1 mm enində qızılı rəngli, 3 mm enində göy və yaşıl rəngli şaquli zolaqlar təsvir edilmişdir. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı rəngli təbəqə bərkidilir.”;

1.4. yeddinci hissədə “üzərində aypara və ulduz təsvir edilən eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm” sözləri “eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm” sözləri ilə əvəz edilsin.

2. Həmin Qanuna əlavə edilmiş “Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə” medalının eskizi bu Qanuna əlavə olunmuş yeni eskizi ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2013-cü il.**

"HƏRBİ ƏMƏKDAŞLIQ SAHƏSİNDƏ XİDMƏTLƏRƏ GÖRƏ" medalı

